**Tarix:** 15 avqust 2023 **Versiya:** 1.1

# ALMANİYA TƏHSİL VİZASINA MÜRACİƏT QAYDALARI

## ƏSAS SƏNƏDLƏR

1. **Pasport**
   - 2 boş səhifəsi olmalıdır;
   - Sənədin əsli və şəkilli səhifənin (əgər varsa, şengen vizaları, ölkələrə giriş-çıxış möhürləri və qeydlər olan bütün səhifələrin) 2 ədəd surəti təqdim olunmalıdır.
2. **Şəxsiyyət vəsiqəsi**
   - Sənədin əsli və 2 ədəd surəti təqdim olunmalıdır.
3. **Milli viza üçün ərizə forması**
   - Ərizə forması https://videx-national.diplo.de/videx/visum-erfassung/#/videx-langfristiger-aufenthalt keçidi üzərindən doldurulmalıdır;
   - Forma 2 ədəd hazırlanmalıdır;
   - Alman dilində doldurulmalıdır;
   - Ərizənin sonunda yer və tarix yazılmalı, şəxsən imzalanmalıdır.
4. **Ərizə üçün rəngli fotoşəkil**
   - 2 ədəd tələb olunur;
   - Ölçüləri 3.5×4.5 sm, ağ fonda və biometrik olmalıdır;
   - Ən köhnə halda 6 ay ərzində çəkilməlidir.
5. **Tibbi sığorta**
   - Sığorta məbləği 30.000 avro hesablanmalıdır;
   - Müraciətçinin Almaniyada ilk 90 gününü əhatə etməlidir;
   - Əsli və 2 ədəd surəti hazırlanmalıdır.
   - Bütün Şengen ölkələri üçün (bax: Şengen zona) keçərli olmalıdır;
   - Sığorta viza qərarı verildikdən sonra səfirliyə təqdim olunmalıdır.
6. **Maliyyə dəstəyinin sübutu**
   - Maliyyə sənədləri qeyd olunan variantların biri (və ya bir neçəsi) ilə sübut oluna bilər:
     - Almaniyada bloklaşdırılmış bank hesabı (Fintiba, Expatrio və s.) və həmin hesaba minimal məbləği (2023-cü il üçün minimum 11.208 avro) mədaxil etməklə;
     - Aylıq ən azı 934 avro təqaüd qazanılması barədə məktubla;
     - “Almaniyada Yaşamaq haqqında Qanunun” 66-68-ci maddələrində qeyd olunmuş öhdəlik haqqında rəsmi bəyanatın əsli (6 aydan köhnə olmamaqla; öhdəlikdə səfərin məqsədi: təhsil göstərilməlidir və ödəmə qabiliyyəti sübut olunmalıdır);
   - Sənədin əsli və 2 ədəd surəti hazırlanmalıdır.
7. **Qəbul məktubu**
   - Universitet tərəfindən göndərilmiş qəbul sənədi və ya universitetə müraciət olunması ilə bağlı sənəd;
   - Sənədin əsli (və ya PDF forması) və 2 ədəd surəti hazırlanmalıdır.
8. **Dil biliyinin sübutu**
   - Beynəlxalq dil sertifikatının əsli və 2 ədəd surəti hazırlanmalıdır;
   - Əvvəlki təhsilin ingiliscə alınması ilə bağlı arayışın əsli və 2 ədəd surəti hazırlanmalıdır.
9. **Əvvəlki təhsilin sənədləri**
   - Bakalavr üçün attestat, magistratura oxuyacaq tələbələr üçün isə bakalavr diplomu (və ya arayış) və diplom əlavəsi (və ya transkript) hazırlanmalıdır;
   - İngilis və ya alman dilinə notarial tərcümə olunmalıdır;
   - Əsli və 2 ədəd surəti hazırlanmalıdır.
10. **Motivasiya məktubu**

- Təhsilə dair məlumatlar (ixtisas sahəsi, region və s.) qeyd olunaraq hazırlanmalıdır;
- Təhsil alınacağı (ingilis, alman və s.) dildə yazılmalıdır;
- Əsli və 2 ədəd surəti hazırlanmalıdır.

**11. Tərcümeyi-hal və ya CV**

- Orta təhsil və peşə fəaliyyəti haqqında yazılmalıdır;
- Alman dilində hazırlanmalı və ya alman dilinə tərcümə olunmalıdır;
- Əsli və 2 ədəd surəti hazırlanmalıdır.

**12. 18 yaşına çatmamış tələbələr üçün**

- Tələbənin doğum haqqında şəhadətnaməsi
  - Alman dilinə notarial tərcümə olunmalıdır;
  - 2 ədəd surəti çıxarılmalıdır.
- Tələbənin Almaniyada yaşaması üçün razılıq ərizəsi
  - Tələbənin Almaniyada yaşaması üçün razılıq ərizəsi hər iki valideyn tərəfindən notarial qaydada verilməlidir;
  - Alman dilinə notarial tərcümə olunmalıdır;
  - 1 ədəd sadə surəti çıxarılmalıdır.

## DƏSTƏKLƏYİCİ SƏNƏDLƏR

**13. Uçuş biletinin bronu**

- Təktərəfli təyyarə bilet bronu;
- Sənədin əsli (və ya PDF forması) və 2 ədəd surəti hazırlanmalıdır.

**14. Yaşayış yeri barədə sənəd**

- Yataqxana, kirayə ev və ya otel bron sənədi;
- Sənədin əsli (və ya PDF forması) və 2 ədəd surəti hazırlanmalıdır.

**15. İxtisaslaşmaya dair sənədlər**

- İş yerindən arayış və s. alman dilinə notarial tərcümə olunmalıdır;
- Sənədin əsli və 2 ədəd surəti hazırlanmalıdır.

## GÖRÜŞÜN GÜNÜN GÖTÜRÜLMƏSİ

1. https://az-appointment.visametric.com/az keçidi üzərindən görüş üçün yer götürülməlidir;
2. Viza müraciəti zamanı Almaniyanın viza mərkəzi hesab olunan VisaMetric şirkətində şəxsi iştirak tələb olunur.

## RÜSUMLAR

- Səfirliyin rüsumu 138 AZN-dir;
- VisaMetric şirkətinin rüsumu 51 AZN-dir;
- Hər iki rüsum VisaMetric şirkətində nağd şəkildə ödənilir.

## QEYD

- Səfirlik əlavə sənədləri tələb etmək hüququnu özündə saxlayır;
- Vizanın cavablandırılması üçün müddət 4-8 həftədir;
- Səfirlik viza qərarı verilənədək pasportu özündə saxlayır;
- Viza müraciəti üçün sənədlərin tam şəkildə təqdimatı vizanın müsbət qərarlandırılacağına zəmanət vermir;
- Səfirliyin rüsumu istənilən halda geri qaytarılmır.

## ÜNVAN VƏ ƏLAVƏ MƏLUMATLAR

**Ünvan:** D.Əliyeva küçəsi 106, Winter Park Plaza, 1-ci mərtəbə, Bakı, Azərbaycan
**Əlaqə nömrəsi:** +994 12 599 88 12

**Veb səhifə:** https://www.visametric.com/Azerbaijan/Germany/az

**Kaspi Global**
Zivərbəy Əhmədbəyov 2K, AZ1009, Bakı
+994 50 642 39 09 | study.abroad@kaspi.edu.az | kaspiglobal.com